Çingiz Qaraşarlı

# TROYALILAR TÜRK İDİLƏR

-10619-
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

«Elm və təhsil»
Bakı – 2012

**Elmi redaktoru:** **Tofiq Hacıyev**
*Azərbaycan AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor*

**Rəyçi:** **Qənirə Paşayeva**
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

**Qaraşarlı Ç.M.** Troyalılar türk idilər.
Bakı, «Elm və təhsil», 2012, 80 səh.

Kitabda Troyanın türk ölkəsi olduğuna dair VII-XV əsr Avropa müəlliflərinin verdiyi məlumatların tarixi gerçəkliyi əks etdirməsi troyalıların və eyni soykökdən olan digər xalqların onomastikası əsasında sübuta yetirilir. Tarixi və linqvistik faktlar üzrə aydın təsəvvür yaranır ki, türk sultanları Bizansı fəth etməzdən çox-çox əvvəl, yeni eradan əvvəlki minilliklərdə, yunanlar türk Troyasını və qonşu əraziləri işğal etmişdilər.

Həmin onomastik material 2005-ci ildə nəşr etdirdiyimiz və Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin Şəhadətnaməsi (04/C-861-06, 24.03.2006-cı il) ilə qeydiyyata alınmış «Qədim yunan, roman, kelt və german dillərində türkizmlər», sonrakı illərdə nəşr olunmuş «Aralıq dənizi hövzəsinin erkən sakinləri-türklər» (2009) və «The Turkic Civilization Lost in the Mediterranean Basin» (2011) adlı monoqrafiyalarda, eləcə də 1980-2012-ci illər arasında xaricdə və Azərbaycanda çap olunmuş onlarca məqalələrimizdə əksini tapmışdır. Avropanın erkən etnik tarixini əks etdirən qədim mənbələrdən ilkin olaraq seçdiyimiz və qədim türk qarşılıqlarını müəyyən etdiyimiz **Alber, Askan, Tarna, Danay, Eney** və onlarca digər adların son illərdə Azərbaycanda nəşr olunmuş bir neçə kitabda bizə istinad olunmadan təqdim olunması müəllif hüquqlarının pozulması kimi qiymətləndiriləcək.

4702000000 / N098 - 2012 *qrifli nəşr*

© «Elm və təhsil», 2012

## Mündəricat

On söz....4
Traklar və türklər....8
Troyalılar və türklər....29
Qədim skandinavların türk kralları....38
Romanın troyalı çarları....47
Daha bir faktor-etrusk yazıları....61
Sultan Mehmed və Troyanın intiqamı....70
Biblioqrafiya....71

## Ön söz

Türkiyə ərazisində türklərin ilkin olaraq orta əsrlərdən başlayaraq məskunlaşdığına dair mövcud baxışlar ilə VII-XV əsr Avropa müəlliflərinin Troyanın türk ölkəsi olduğuna dair fikirləri arasında açıq ziddiyyət üzə çıxır. Troyalıların mənşəyi ilə bağlı bu məlumatlar əslində yalnız Troyanın deyil, Aralıq dənizi hövzəsinin böyük bir regionunun etnik tarixi ilə bağlı yeni gerçəkləri ortaya qoyur. Çünki yeni eradan əvvəl III minillikdə Kiçik Asiyada mövcud olmuş Troyanın əhalisi Yunanıstanın, İtaliyanın və qonşu ərazilərin erkən xalqları (pelasq, trak və etrusklar) ilə eyni soykökdən idilər. Bu xalqların da türk mənşəli olmaları həm qədim Avropa qaynaqlarında, həm də elmi tədqiqatlarda əks olunur.

XIII-XIV əsr skandinav dastanları həm troyalıların, həm də trakların türk mənşəli olduqlarını yazır. Bir sıra Qərb tədqiqatçıları isə hələ ötən əsrlərdə troyalıların birbaşa nəsilləri olmuş etruskların türk olduqlarından bəhs etmişlər.

Troyanın türklərlə bağlılığı hələ VII əsrdə yazılmış Fredegar Xronikasında və XII əsrə aid Gesta Francorum adlı əsərdə göstərilirdi. Fredegar Xronikasına görə, türklər və franklar Troyanın istilasından sonra bölgədən qaçmış, franklar Pannoya (Macarıstan) və Reyn bölgələrində, türklər isə iskit torpaqlarında yerləşmişdilər (11, 95).

Nicole Gilles adlı müəllif öz əsərində türklərin Troya mənşəli turkoslardan törədiyini yazırdı. XII əsr tarixçisi Tyreli William da türklərin Troya mənşəli olduğunu, onların ataları olmuş **turkosların** iskit torpaqlarına köçməsini qeyd edirdi (11, 96).

XIV əsrə aid tarixçi Andrea Dandalo türklərin Troya kralı Priamın nəslinə aid Turkosdan törədiyini yazmaqla yanaşı, türklərin Qafqaz dağlarından gəldiyini də yazmışdır (11, 96).

Dominikan keşişi florensiyalı Antoninus da türklərin troyalı turkoslarla eyni millət olduğunu Xronikonda dilə gətirmişdi.

Eyni fikri digər avropalı müəlliflər – Bracciolini, Poggio, İsidor, Ficcino və başqaları da söyləmişlər.



Alman Feliks Fabri isə troyalı türklərin tarixini Priamın dövründən Troyanın daha qədim çağlarına-troyalı şahzadə Hesionenin oğlu Tevkrin zamanınadək qədimləşdirmişdi. Feliksə görə, Troyanın süqutundan sonra Hektorun oğlu Frankonun nəzarətində olan troyalı qaçqınlar əvvəlcə Almaniyaya, Frankoniya ətrafına gəlmiş, bir çoxu Reyn çayını keçmiş və bu gün Fransa adlanan ərazidə yerləşmişdilər.

Turkosun başçılıq etdiyi geridə qalmış dəstə isə, onun yazdığına görə, Asiya İskitiyasına yerləşmişdi [11, 97].

İspaniyalı müəllif Pero Tafur 1437-ct ildə İstanbula gəldiyi zaman xalq arasında «türklər Troyanın intiqamını alacaqlar» fikrinin dolaşdığını qeyd edir.

Giovanni Mario Filelfo özünün «Amyris» adlı mənzum əsərində II Mehmedin həyatını və zəfərlərini təsvir edərkən onun soyunun Troyaya bağlılığını ön plana çəkir və sultanın rumlar üzərindəki qələbəsini ədalətin zəfəri kimi təqdim edir. Onun qənaətinə görə, türklər Troyanı vaxtilə işğal etmiş yunanlardan İstanbulun fəthi ilə intiqam almış oldular [11, 99].

İstanbulu fəth edən Sultan Mehmed Troyanın tarixini bilirdi. O, 1462-ci ildə Midillinin fəthi zamanı Çanakkaledə Troya xarabalıqlarının olduğu yerə gələrək, qəhrəmanların məzarlarını araşdırmışdı. Troya haqqında bütün yazılanlardan xəbərdar olan Fateh Sultan Mehmed Troya xarabalığındaykən başını aşağı əyərək demişdi: «Allah məni bu şəhərin və xalqının müttəfiqi olaraq bu zamanadək qoruyub saxladı. Biz bu şəhərin düşmənlərinə qalib gəldik və onların vətənlərini aldıq. Yunanlıların biz asiyalılara qarşı etdikləri pis davranışların intiqamını aradan uzun zaman keçməsinə baxmayaraq onların nəsillərindən aldıq» [11, 103].

Sultan Mehmedin dediyindən göründüyü kimi, İstanbulun fəthini o, işğal deyil, qisas hesab etmiş, vaxtilə yunanların işğal etdikləri bu torpağı gec də olsa qurtardığını dilə gətirmişdi.

Qədim yunanlar əslində yalnız Troyanı deyil, əvvəllər Pelasqia adlanan Yunanıstan ərazisini də işğal etmişdilər. Bu işğalçıların (axeylər, dorilər) indiki Yunanıstan ərazisinə e.ə. II-I min-

illiklərdə gəldikləri tarixi faktdır [89, 14-16].

Yunan tarixçisi Herodot yunanlardan əvvəl Elladada pelasqların məskunlaşdıqlarını, ölkənin onların adı ilə Pelasqia adlandığını yazır [32, 98].

Qədim yunan müəllifi Ksenofon ilk yunanların bu əraziyə gəlməsindən bəhs edən bir hekayətində o zaman burada yad dildə danışıldığını əks etdirən belə bir səhnə təsvir edir:

«... yunan dilində danışan on min nəfərdən ibarət bir dəstə Balkan dağlarından Struma və yaxud Vardar vadisi ilə cənuba doğru hərəkət edərək, özləri üçün daha rahat bir yurd axtarırdılar. Birdən onlar qarşılarında özlərinin və yaxud əcdadlarının nə vaxtsa görmədikləri nəhəng bir su gördülər. Onlar təəccüb içində yerlilərdən bunun nə olduğunu soruşdular. Yerlilər isə təəccüblə dedilər: bu ki **θalassa**-dır («dənizdir»). Beləliklə, **θalassa** sözü eyni mənada yunanların dilinə daxil olur» [89, 14].

**θalassa** dilçilik ədəbiyyatında qədim yunan dilinə ölkənin əvvəlki sakinlərinin dilindən alınmış geniş leksik substrata daxil edilir [60]. Sözün kökü **θala** başqa hind-Avropa dillərində dəniz mənasında rastlanmır. Lakin eyni kökdən olan **talay** («dəniz») qədim türk və monqol dillərində [98, 528] vardır.

Pelasqların etnik mənşəyinə gəldikdə isə, qədim müəlliflər tərəfindən onların **tirren** və ya **tirsenlərlə** (etrusklarla) qohum sayılması onların hind-Avropa mənşəli olmadıqlarını, əksinə troyan-etrusk etnosuna aidiyyətlərini göstərir. Qədim yunan tarixçisi Dionisii Halikarnaski tirren və pelasqların eyni xalq olduqlarını, V əsr yunan tarixçisi Lesboslu Helanik isə tirsenlərin əvvəllər pelasq adlandığını, yunan işğalından sonra onların bir hissəsinin İtaliyaya köçdüyünü yazır [37, 95].

Lemnos adasında aşkar edilmiş pelasq yazısı da bu xalqın dili ilə tirsen (etrusk) dilinin yalnız dialekt səviyyəsində fərqlənən eyni dil olduğunu göstərir [37, 104; 56, 39].

Qədim yunan müəlliflərinin fikirləri, göründüyü kimi, nəinki Troyanın, heç Yunanıstan adlanan ərazinin də ən qədimdə yunanlara məxsus olmadığını, burada troyalılarla eyni soykökdən olan pelasq, tirsen və trakların məskunlaşdıqlarını göstərir.



Həm Yunanıstanın erkən sakinləri pelasq və trakların, həm də troyalıların onomastikasında türk adlarının aşkar olunması, eləcə də qədim Avropa qaynaqlarının məlumatları Troyanın mənşəyi məsələsinə regional çərçivədə, yəni trak, pelasq və etrusklarla vəhdətdə yanaşmanın vacibliyini zəruri edir.

## Traklar və türklər

İngilis tədqiqatçısı K.Blegenin məlumatına əsasən, troyalılar e.ə.3000-2500-cü illər arasında Troyaya Şərqi Avropadan gəlmiş trakların nəsilləri idilər [86, 174]. Eyni soykökdən olduqları «İliada»da xüsusi olaraq vurğulanan trak və troyalıların [4] qədim mənbələrdə eyni səslənən etnik adları da (**truse** – **trausi** və b.) tədqiqatçıların diqqətindən yayınmamışdır.

Trakların etnik mənşəyinə dair ən önəmli məlumat XIV əsrdə yazılmış Skandinaviya coğrafiya əsərlərində verilir: **A Tracia bygti fyst Tiras sonr İafeths Noasonar. Fra honum er komen ðiod su, er Tyrkir heita** («Trakiyada ən əvvəl Nuhun oğlu Yafətin oğlu Tiras yaşamışdır. Ondan **türk** adlanan xalq törəmişdir» [52, 56-65]. Elə oradaca Yunanıstanın qədimdə Trakiyanın bir hissəsi olduğu göstərilir : **Tracia ðat er alt eitt ok Grikland** [52, 56].

Genealoji əfsanələrdə ulu əcdad adı altında qədim xalq və tayfaların nəzərdə tutulduğunu nəzərə alsaq, Skandinaviya mənbəsinin məlumatında Trakiyanın ilk sakini, yəni trakiyalıların əcdadı kimi göstərilən **Tirasın** həmin ölkədə daha qədimdə yaşamış xalqın etnik adı olduğu aydın görünür. Bunu başqa genealoji əfsanələrdə verilən məlumatlar aydın göstərir. Misal üçün, X əsrə aid xəzər türklərinin yazılı mənbəsində **Tiras** türk xalqlarının arasında yer alır. Xəzər xaqanı İosif öz xalqının mənşəyindən bəhs etdiyi bu sənəddə xəzərlərə qohum olan xalqlar arasında **Tirasın** da adını çəkir. Onun yazdığına görə, Xəzərlər Yafətin oğlu Toqarmadan törəmiş, Toqarmanın on oğlu olmuşdur: Aqiyor, Tiras (Turis), Avar, Uquz, Bizal, Tarna, Xəzər, Znur, Bulqar, Savir [44, 74].

Onun «qardaşlar» kimi təqdim etdiyi bu xalqlar elmə məlum olan qədim türk xalq və tayfalarıdır. Etnosların oğullar və yaxud qardaşlar şəklində personifikasiyası bütün qədim xalqların mifologiyasına xas olmuşdur.

Qədim Skandinaviya coğrafi əsərlərində Trakiyanın ilkin sakini, türklərin ulu əcdadı hesab edilən **Tiras** ilə Xəzər xaqanının məktubunda türk xalqları arasında yer alan **Tirasın** eyni etnosu bildirdiyi aşkardır. Xəzər mənbəsində bir variantda **Tiras,** başqa bir variantda isə **Turis** adlanan etnonim əslində daha geniş əhatəli etnik termin olub, prototürklərin tarixən Qərbi Avropa və Kiçik Asiyada (Troyada) məskunlaşmış bir qolunu bildirir. Buraya qədim yunan dilində **tirsen**, latınca **turski** adlanan [37, 109] etrusklar, **tros (es)** adlanan troyalılar, **trausi / trakes** adlanan traklar [37, 100-114] da aiddir. Fikrimizcə, **Turski** («Etrusk») etnonimi qədim türklərin sanskrit dilindəki etnik adı – **turuska** [100, 245], eləcə də turanlıların qədim erməni mənbəsindəki adı – **tursi** [1, 15] eyni etnonimin müxtəlif fonetik variantlarıdır. Çünki müxtəlif tarixi mənbələrdə traklarla türkləri bağlayan ***Tiras*** onların eyni kökdən olduğunu göstərən çox sayda onomastik material ilə təsdiqlənir. Uyğunluqların böyük bir qismi həmin xalqların etnonimlərində müşahidə edilir: xəzərlərin genealogiyasında Tirasın «qardaşları» arasında adı çəkilən **Bizal** da hər iki xalq üçün ümumi etnonimdir: **bizal** xəzərlərin tərkibinə daxil olan tayfalardan biri idi [30, 139; 31, 44]. Traklarınsa tərkibində **bisalt** adlı iri tayfanın olduğu məlumdur [77, 73].

***Bizal*** etnonimi türk dillərində həm də **buzal, bozal** variantlarında işlənmişdir [31, 44-45]. Ona Azərbaycanın Tovuz rayonundakı **Bozalqanlı** oykonimi və XIX əsrə aid **bozallar** etnonimində rast gəlinir [31, 45].

Traklara məxsus **bisalt** etnoniminin tərkibindəki **-t** elementini qədim türk etnonimiyasında cəm bildirən **-t** şəkilçisi ilə müqayisə etmək olar: oyrot, yomut, onqut, tirkut, soyut və s. [30, 310].

Trak – türk etnonimiyasındakı ***bisalt*** **- bizal** bir çox etnonimik paralellərlə müşayiət olunur.

**Dardan.** Trak tayfalarından biri **dardan** [86, 57] adlanırdı. Antik ədəbiyyatda şəxs, xalq və ölkə adı kimi tanınmış **dardan** həm trak, həm də troyalılar üçün ümumidir. Əslində troyalılarla traklar eyni bir xalq olmuşlar. Tarixçi K.Blegen troyalıların e.ə. 3000-2500-ci illərdə Kiçik Asiyaya gəlmiş trakların nəsilləri ol-

duğunu yazır [86, 174].

Qərb dilçiliyində **Dardan** adının inandırıcı etimoloji yozumu yoxdur. Onu Balkan albanlarının dilindəki **dardhe** («armud») ilə bağlamışlar [34, 19]. Lakin tayfa, şəxs və ölkə adı kimi çoxmənalı bir adı «armud» sözü ilə bağlamaq doğru sayıla bilməz. «Armud» sözünün toponimə çevrilməsi nəzəri cəhətdən mümkün olsa da, onun şəxs və yaxud xalq adına çevrilməsi inandırıcı deyildir. Aşağıda görəcəyimiz kimi, **Dardan** adını onomastikanın qanunlarına uyğun olaraq türk dillərinin materialı əsasında izah etmək mümkündür. Əvvəla, Dardan sözü alban mənşəli olsaydı, balkan albanlarının dilində belə bir toponim olardı. Türk xalqlarının onomastikasında isə **Dardaŋ** şəxs və dağ adları kimi işlənməklə bərabər, həm də türk dillərində onun inandırıcı etimoloji yozumu vardır. Qazax dilçisi A.Kaydarov Qazaxıstanın qədim onomastikasında işlənmiş **Dardaŋ** dağ adını qazax dilindəki **dar** («dağ kimi böyük») apelyativi ilə bağlayır. Onun fikrincə, **dar** əsasında **dardi** (<**dar+diy** «özünü üstün tutmaq», «özünü nəhəng saymaq») feli və **dardaŋ** (**dar** + **daŋ** «ərköyün», «lovğa») sözləri meydana çıxmışdır [20, 261-262].

Göründüyü kimi, sözün semantikası onun həm şəxs adında («lovğa», «özünü böyük sanan»), həm də təbii obyektlərin (dağ və s.) adında («nəhəng», «böyük») işlənməsini şərtləndirir.

Qırğız antroponimiyasındakı **Dardaŋ** şəxs adı [16, 102] məhz göstərilən semantikanı daşıyır. Onun apelyativ əsasını qırğız dilindəki **dardaŋ** («hədsiz dərəcədə iri bədənli və sağlam adam») sözü təşkil edir. Qırğız folklorunda bahadır və pəhləvanların səciyyəvi əlamətini ifadə etmək üçün bu söz geniş işlənmişdir (**Dardaŋ baatır**) [114, 186].

**Saki.** Trak tayfalarından biri ***saki*** adlanırdı [28, 168]. Qədim mənbələrdə Troyada və Trakiyada mövcud olmuş **skay** tayfası haqqında da danışılır [28, 182]. Bu etnonimləri qədim türklərə məxsus **saka** etnonimi ilə müqayisə etmək olar. **Sakaların** türk mənşəli olduğunu sübut edən dəlillər vardır. M.İsmayılov sakaların mənşəyi ilə bağlı olan bir sıra qaynaqlara əsaslanaraq, onların türk mənşəli olduğunu göstərir: VI əsr Bizans tarixçisi Me-



nandr türklərin qədimdə **saka** adlandığını, VII əsr Bizans tarixçisi Filofilakt Simokatta isə Qafqazda və daha şimalda yaşayan skiflərin türklər olduğunu yazmışlar [41, 20].

***Saka*** və onun fonetik variantlarının məhz bir sıra türk xalqlarının etnik adında indiyədək işlənməsi onların türk mənşəli olduğunu təsdiqləyən amillərdən biridir: **şaka** qazaxların, **şakay** özbəklərin, **sake, saka** qırğızların, **şaklar** türkmənlərin, **sakay, saqay** xakasların etnik tərkibinə daxil olan tayfalardır [30, 90].

***Sak*** etnoniminin əsasında qədim türk, qırğız, türkmən və başqa türk dillərindəki ***sak*** ("diqqətli", "ehtiyatlı") apelyativinin dayanması da mümkündür. Eyni apelyativlərin semantik baxımdan antroponimik termin kimi traklara (misilərə) məxsus **Saka** [77, 167-168] və türk xalqlarına məxsus **Sak** (tatar, başqırd), **Saka** (qırğız), **Sakay** (çuvaş) və başqa şəxs adlarının da əsasını təşkil etdiyini [16, 106; 69, 218; 83, 65] demək mümkündür. Yuxarıda qeyd edildiyi kimi, insanların müsbət mənəvi və fiziki əlamətlərini bildirən apelyativ leksika çağdaş xalqlarda olduğu kimi, qədim cəmiyyətlərdə də antroponimlərin yaranmasında geniş yer tutmuşdur.

T.D. Zlatkovskaya Misiyanın tarixinə dair kitabında Dunay sahilində məskunlaşmış trak tayfalarının **Rol** və **Tsirak** adlı başçıları haqqında məlumat verir [39, 7]. Türk xalqlarının antroponimiyasında həmin şəxs adlarının azacıq fərqli variantlarının işləndiyini aşkar edirik.

E.ə.II əsrdə trak mənşəli dak tayfasının çarı **Orol** [58, 231] ilə ***Rol*** arasında sadəcə fonetik fərq vardır. **Orol** variantı qazax və qaraqalpaqlara məxsus **Oral** şəxs adı ilə [38, 349; 93, 329] müqayisə edilə bilər.

***İl.*** Antik ədəbiyyatda Dardanın oğlu və Troyanın əsasını qoymuş əfsanəvi Troyun oğlu bu adı daşımışdır [22, 66]. Eyni kişi adını **(İl)** tatar və başqırdlara məxsus türk mənşəli qədim şəxs adları arasında [83, 59] və qədim qaraqalpaq antroponimiyasında [38, 230] aşkar edirik.

Üçüncü trak rəhbərinin adı **Tsirak** Orta Asiyadan Şimali Qafqazadək geniş ərazilərin onomastikasında yayılmış **sirak/**



**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cü maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**